Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 30 ” oktyabr tarixli
323 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# “Yüksəkixtisaslı miqrant” portalı haqqında

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. “Yüksəkixtisaslı miqrant” portalı haqqında Əsasnamə” (bundan sonra − Əsasnamə) “Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 156 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və “Yüksəkixtisaslı miqrant” portalının (bundan sonra – Portal) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Portal müasir tələblərə cavab verən yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra – yüksəkixtisaslı miqrant) Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə onların “Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 156 nömrəli Sərəncamı ilə təsis edilmiş Yüksəkixtisaslı Miqrant Proqramı çərçivəsində müraciətlərinin elektron qaydada qəbulunu və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində yaradılan “Yüksəkixtisaslı miqrantlar” altsistemi vasitəsilə baxılaraq cavablandırılmasını, Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş hüquqi və fiziki şəxslərin, habelə xarici hüquqi şəxsin nümayəndəliyinin və ya filialının sorğusu əsasında onların yüksəkixtisaslı miqrantlarla əlaqələndirilməsini təmin edir.

1.3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 99 nömrəli Qərarı ilə təsdiq edilmiş “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası” (bundan sonra – Qayda) ilə tənzimlənir.

1.4. Portalın fəaliyyəti “bir pəncərə” prinsipi tətbiq edilməklə təmin olunur. Portalda formalaşan, yaradılan, əldə edilən, daxil edilən (ötürülən), toplanılan, mühafizə edilən və saxlanılan sənədlər (məlumatlar) Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Portalın aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsi, o cümlədən Portalın aparılması və arxivləşdirilməsi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq həyata keçirilir.

1.6. Portal, Portala daxil edilən və inteqrasiya edilən məlumatlar, o cümlədən Portalın və həmin məlumatların ehtiyat nüsxələri “Hökumət buludu”nda yerləşdirilir.

1.7. Bu Əsasnamədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.7.1. Portalın sahibi – normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Portal üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, qanunvericiliyə müvafiq qaydada Portalın aparılmasını təmin edən Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;

1.7.2. iştirakçı – Portalın informasiya proseslərində iştirak edən qurum;

1.7.3. istifadəçi – normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Portaldan informasiya əldə etmə və ya informasiyadan istifadə hüququ verilmiş hüquqi və fiziki şəxslər, xarici hüquqi şəxsin nümayəndəliyi və ya filialı;

1.7.4. elektron kabinet – elektron eyniləşdirmə vasitələrindən (Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş fiziki şəxslər, o cümlədən hüquqi şəxslərin, xarici hüquqi şəxsin nümayəndəliyinin və ya filialının qanuni təmsilçiləri Vahid Giriş Sistemi pəncərəsindən təkmil sertifikatlı gücləndirilmiş elektron imzadan, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə elektron poçtdan və ya digər elektron eyniləşdirmə vasitələrindən) istifadə etməklə Portalda yaradılan və istifadəçi tərəfindən özü barədə məlumatların Portala daxil edilməsini və yenilənməsini, Portalın təqdim etdiyi xidmətlərdən istifadə edilməsini və məlumatların əldə edilməsini, müraciətə baxılma və sorğunun cavablandırılma prosedurlarının izlənilməsini, habelə Portalın sahibi, iştirakçı və istifadəçilərin qarşılıqlı əlaqəsini təmin edən xüsusi fərdi elektron səhifə;

1.7.5. “Yüksəkixtisaslı miqrantlar” altsistemi – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində yaradılan və Portala daxil olan müraciətlərin qəbulunu, baxılmasını, o cümlədən şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsini təmin edən və yüksəkixtisaslı miqrantların reyestrini aparan altsistem.

1.8. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş mənaları ifadə edir.

1.9. Portalın fəaliyyətinin təşkili, saxlanması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

## 2. Portalın fəaliyyət prinsipləri

2.1. Portal aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

2.1.1. şəffaflıq – Portalın fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənməsi imkanının mövcudluğu;

2.1.2. istifadə rahatlığı – Portaldan istifadənin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2.1.3. səmərəlilik – müraciətlərin təqdim edilməsi, qəbulu, cavablandırılması üçün tələb olunan vaxtın və maliyyə xərclərinin optimallaşdırılması, habelə istifadəçilər və iştirakçılar arasında qarşılıqlı əlaqənin, istifadəçilərə göstərilən xidmətlərin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi;

2.1.4. operativlik – müraciətlərin təqdim edilməsinin, qəbulunun, cavablandırılmasının və nəticələrinin göndərilməsinin, habelə informasiyanın əldə olunmasının və mübadiləsinin elektron qaydada həyata keçirilməsi;

2.1.5. fasiləsizlik – Portalda fəaliyyətin fasiləsiz həyata keçirilməsi.

## 3. Portalın infrastrukturu

3.1. Portalın infrastrukturu texniki-texnoloji və funksional baxımdan aşağıdakı əsas komponentlərdən ibarətdir:

3.1.1. texniki vasitələr və proqram təminatı;

3.1.2. telekommunikasiya kanalları;

3.1.3. elektron xidmətlər modulu;

3.1.4. idarəetmə sistemi;

3.1.5. Portalın test mühiti.

3.2. Portalın texniki vasitələri və proqram təminatı, telekommunikasiya kanalları bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulan xidmətlərin göstərilməsini, informasiya mübadiləsinin həyata keçirilməsini, istifadəçilərin Portaldan istifadəsini, Portalın fəaliyyətinin etibarlılığını, təhlükəsizliyini və məlumatların mühafizəsini təmin edir.

3.3. Elektron xidmətlər modulu Portala müraciətlərin qəbulunu və cavablandırılmasını, müraciətə baxılma və sorğunun cavablandırılma prosedurlarının izlənilməsini, habelə Portalın sahibi, iştirakçı və istifadəçilərin qarşılıqlı əlaqəsini təmin edir.

3.4. Portalın idarəetmə sistemi onun informasiya ehtiyatının formalaşdırılmasını, idarə olunmasını və istifadəsini təmin edir.

3.5. Portalda aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

3.6. Müvafiq sahədə xidmətlərdən istifadə üçün Portal bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan elektron eyniləşdirmə vasitələri ilə daxil olmağa imkan verən autentifikasiya mexanizmləri ilə təchiz edilir.

## 4. Portalın funksiyaları və ondan istifadə (müraciətlərin qəbulu, qeydiyyatı və baxılması)

4.1. Bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulan xidmətlərin göstərilməsi eyni zamanda Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) keçid verilməklə Portalın internet informasiya ehtiyatı üzərindən təmin edilir.

4.2. Portalın internet informasiya ehtiyatı Azərbaycan dili ilə yanaşı azı iki xarici dildə fəaliyyət göstərir.

4.3. Bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulan xidmətlərdən istifadə etmək üçün istifadəçi ilk növbədə, elektron eyniləşdirmə vasitələrindən (Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş hüquqi və fiziki şəxslər, habelə xarici hüquqi şəxsin nümayəndəliyi və ya filialı Vahid Giriş Sistemi pəncərəsindən təkmil sertifikatlı gücləndirilmiş elektron imzadan, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə elektron poçtdan və ya digər elektron eyniləşdirmə vasitələrindən) istifadə etməklə Portalda qeydiyyatdan keçərək elektron kabinet yaradır və həmin elektron kabinetdə müvafiq funksiyanı seçir.

4.4. Bu Əsasnamənin 4.3-cü bəndi nəzərə alınmaqla, digər müraciətlər üçün elektron kabinetin yaradılması tələb olunmur.

4.5. Bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulan xidmətlərə uyğun olaraq açılan pəncərədə istifadəçiyə dair aşağıdakı məlumatlar Portal tərəfindən iştirakçıların informasiya sistemlərindən EHİS vasitəsilə əldə edilərək əks olunur, bu

mümkün olmadığı təqdirdə isə həmin məlumatlar istifadəçi tərəfindən Portala təqdim edilir:

4.5.1. işəgötürən qismində:

4.5.1.1. hüquqi şəxs, yaxud xarici hüquqi şəxsin nümayəndəliyi və ya filialı olduqda:

1. adı;
2. hüquqi ünvanı və təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvan;
3. əlaqə vasitəsi (elektron poçt ünvanı, telefon (mobil, stasionar) və s.);
4. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);
5. fəaliyyət növü;
6. qanuni təmsilçinin soyadı, adı, fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN) (FİN-i olmayan əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə münasibətdə onun pasportunun və ya digər sərhədkeçmə sənədinin seriya və nömrəsi);

4.5.1.2. fiziki şəxs olduqda:

1. soyadı və adı;
2. FİN (FİN-i olmayan əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə münasibətdə onun pasportunun və ya digər sərhədkeçmə sənədinin seriya və nömrəsi);
3. əlaqə vasitəsi (elektron poçt ünvanı, telefon (mobil, stasionar) və s.);
4. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);
5. fəaliyyət növü;
6. qeydiyyatda olduğu ünvan və təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvan;

4.5.2. yüksəkixtisaslı miqrant qismində:

4.5.2.1. soyadı və adı;

4.5.2.2. elektron poçt ünvanı.

4.6. İstifadəçi müvafiq olaraq Qaydanın 1 nömrəli əlavəsində nəzərdə tutulan məlumatları və bu məlumatlarla əlaqədar təsdiqedici sənədləri, eləcə də EHİS vasitəsilə əldə edilməsi mümkün olmayan məlumatları daxil edərək həmin məlumatların və sənədlərin, həmçinin bu Əsasnamənin 4.5-ci bəndində göstərilən məlumatların tamlığını yoxladıqdan sonra təkmil sertifikatlı gücləndirilmiş elektron imza və ya digər elektron eyniləşdirmə vasitəsilə təsdiqləməklə Portal vasitəsilə təqdim edir.

4.7. Portala edilən müraciətlər qəbul edildikdən sonra qeydiyyata alınaraq “Yüksəkixtisaslı miqrantlar” altsisteminə daxil edilir, bu barədə istifadəçinin elektron kabinetinə və (və ya) elektron poçt ünvanına bildiriş göndərilir.

4.8. Portalda qeydiyyata alınan müraciətə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada “Yüksəkixtisaslı miqrantlar” altsistemi vasitəsilə baxılır və nəticəsi barədə istifadəçinin elektron kabinetinə və (və ya) elektron poçt ünvanına məlumat göndərilir.

## 5. Portalın sahibinin hüquq və vəzifələri

5.1. Portalın sahibinin hüquqları aşağıdakılardır:

5.1.1. öz təşəbbüsü, habelə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) təklifi əsasında Portalın funksional imkanlarının artırılması və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək, habelə bu istiqamətlərdə rəy və təkliflər vermək;

5.1.2. əldə olunması qanunla məhdudlaşdırılan, o cümlədən xidməti istifadə üçün nəzərdə tutulan informasiyadan yalnız müvafiq normativ hüquqi aktlara uyğun şəkildə istifadə məqsədilə həmin məlumatların ötürülməsində məhdudiyyətlər tətbiq etmək;

5.1.3. iştirakçı Portalın fəaliyyətini ləngidən, dayandıran, ona zərər vuran davranışlara yol verdikdə, bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat vermək;

5.1.4. Portala inteqrasiya olunmuş informasiya sistemləri müəyyən olunmuş texniki tələblərə cavab vermədikdə, onlarda zəruri dəyişiklik edilməsi və təkmilləşdirmə aparılması barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat vermək;

5.1.5. Portalın fəaliyyətinin təmin olunması və Portal üzərindən xidmətlərin göstərilməsi ilə bağlı zəruri sənədləri (məlumatları) əldə etmək üçün iştirakçılara və (və ya) istifadəçilərə sorğular vermək və onlardan göndərilən sənədləri (məlumatları) qəbul etmək;

5.1.6. Portalın fəaliyyətini təmin etmək üçün müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

5.1.7. bu Əsasnamədən irəli gələn digər hüquqları yerinə yetirmək.

5.2. Portalın sahibi aşağıdakı vəzifələri yerinə yetirir:

5.2.1. bu Əsasnamənin 2.1-ci bəndində nəzərdə tutulan prinsiplər əsasında Portalın fəaliyyətini və idarə olunmasını təşkil etmək;

5.2.2. bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulan xidmətlər üzrə funksionallıqların yaradılması, habelə elektron kabinet vasitəsilə müraciətlərə baxılmanın və sorğuların cavablandırılmasının izlənilməsini təmin etmək;

5.2.3. qanunsuz daxilolma və saxtalaşdırma hallarının qarşısını almaq, giriş və əməliyyat tarixçələrini (loqları) həmin məlumatlar əhəmiyyətini itirənədək saxlamaq və elektron nəzarət-audit jurnallarında toplanılmasını (hesabatlılığını) təmin etmək;

5.2.4. Portalın texniki-texnoloji infrastrukturunun təyinatı üzrə istismarını, ona texniki xidməti, təmirini və saxlanmasını təmin etmək, habelə Portalın fəaliyyətinin mütəmadi monitorinqini həyata keçirmək və müvafiq profilaktik işlər aparmaq;

5.2.5. riskləri təhlil etmək, habelə risklərin idarə edilməsi, böhran və bərpa planlarının hazırlanmasını həyata keçirmək;

5.2.6. Portalın təhlükəsizliyi ilə bağlı mövcud və yarana biləcək təhlükələr, o cümlədən Portalın təhlükəsizliyi pozulduqda, əsas avadanlıqda hər hansı qəza (xəta) baş verdiyi halda aidiyyəti dövlət orqanlarını bu barədə məlumatlandırmaq, qəzanın (xətanın) dərhal aradan qaldırılması üçün müvafiq tədbirlər görmək;

5.2.7. iştirakçılara və istifadəçilərə Portalın iş prinsipi və funksional imkanları haqqında məlumat vermək, metodik kömək göstərmək;

5.2.8. istifadəçilərin Portala daxil etdikləri məlumatların iştirakçılara çatdırılmasını təmin etmək;

5.2.9. Portala inteqrasiya olunan informasiya ehtiyatlarının və sistemlərinin, elektron xidmətlərin dayanıqlı və fasiləsiz fəaliyyətinin iştirakçılar tərəfindən təmin olunmasına nəzarət etmək;

5.2.10. istifadəçilərin müraciətlərinə baxılmasının nəticələrini, o cümlədən sənədlərin (məlumatların) və sorğuların istifadəçilərin elektron kabinetinə və (və ya) elektron poçt ünvanına göndərilməsi imkanlarını təmin etmək;

5.2.11. informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə təmin etmək;

5.2.12. əldə olunması qanunla məhdudlaşdırılan, o cümlədən xidməti istifadə üçün nəzərdə tutulan informasiyanın yalnız qanunla müəyyən edilmiş qaydada ötürülməsini və istifadəsini təmin etmək;

5.2.13. Portalın fəaliyyətində qanunvericiliyin, o cümlədən bu Əsasnamənin tələblərinə riayət olunmasına nəzarət etmək, habelə qanunvericilikdə edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparmaq;

5.2.14. Portalın, Portala daxil edilən və inteqrasiya edilən məlumatların, o cümlədən Portalın və həmin məlumatların ehtiyat nüsxələrinin “Hökumət buludu”nda yerləşdirilməsi üçün “Hökumət buludu”nun operatoru ilə birlikdə zəruri tədbirlər görmək;

5.2.15. Portalı EHİS-ə inteqrasiya etmək və digər dövlət informasiya ehtiyatı və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

5.2.16. bu Əsasnamədən irəli gələn digər vəzifələri yerinə yetirmək.

## 6. İştirakçıların hüquq və vəzifələri

6.1. İştirakçıların hüquqları aşağıdakılardır:

6.1.1. Portalın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Portalın sahibinə təkliflər vermək;

6.1.2. səlahiyyətlərinin icrası tələb etdikdə Portalın fəaliyyətinə dair məlumat əldə etmək üçün Portalın sahibinə sorğular vermək və Portalın sahibindən belə məlumatları almaq;

6.1.3. bu Əsasnamədən irəli gələn digər hüquqları yerinə yetirmək.

6.2. İştirakçıların vəzifələri aşağıdakılardır:

6.2.1. əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyanın mühafizəsi ilə bağlı tədbirlər görmək;

6.2.2. Portalın fəaliyyətini ləngidən, ona zərər vuran, o cümlədən Portalın fəaliyyətinin dayanmasına səbəb ola bilən hərəkətlərə yol verməmək;

6.2.3. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

6.2.4. öz təşəbbüsləri, habelə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və Portalın sahibinin səlahiyyətləri daxilində verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər və təkmilləşdirmələr aparmaq;

6.2.5. Portala inteqrasiya olunmuş informasiya sistemlərində nəzərdə tutulan profilaktik, təmir, sazlama və digər texniki işlərin aparılacağı barədə Portalın sahibini və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyini ən azı 5 (beş) iş günü əvvəl məlumatlandırmaq;

6.2.6. Portalda saxlanılan sənədlərdə (məlumatlarda) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal Portalın sahibinə və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat vermək;

6.2.7. Portalın sahibinin sorğularını vaxtında, tam və mahiyyəti üzrə cavablandırmaq, habelə qeyd olunan sorğular əsasında zəruri məlumatları (sənədləri) ona təqdim etmək;

6.2.8. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə Portalın sahibinə və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat vermək;

6.2.9. bu Əsasnamədən irəli gələn digər vəzifələri yerinə yetirmək.

## 7. İstifadəçilərin hüquq və vəzifələri

7.1. İstifadəçilərin hüquqları aşağıdakılardır:

7.1.1. Portal vasitəsilə müraciət etmək, sorğu vermək və cavablar almaq;

7.1.2. Portaldan özü barədə məlumatlar əldə etmək, bu məlumatlarda səhv aşkar etdikdə, onların dəyişdirilməsini tələb etmək;

7.1.3. Portalın fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

7.1.4. Portal vasitəsilə göndərdiyi müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə baxılmasını tələb etmək;

7.1.5. bu Əsasnamədən irəli gələn digər hüquqları həyata keçirmək.

7.2. İstifadəçilərin vəzifələri aşağıdakılardır:

7.2.1. Portalın təqdim etdiyi xidmətlərdən bu Əsasnamənin 4-cü hissəsi ilə müəyyən edilmiş qaydada istifadə etmək;

7.2.2. Portalın fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

7.2.3. Portalın sahibinin sorğularını vaxtında, tam və mahiyyəti üzrə cavablandırmaq, habelə qeyd olunan sorğular əsasında zəruri məlumatları (sənədləri) ona təqdim etmək;

7.2.4. bu Əsasnamədən irəli gələn digər vəzifələri yerinə yetirmək.